UOT: 332.1

İctimai sağlamlıq üzrə informasiya resurslarının xarakterik xüsusiyyətləri

[1]Y.H.Hacıyeva, [2]Y.U.Pirəliyeva, [1]R.B.Liftiyev
[1]Azərbaycan Tibb Universiteti,
İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası, Bakı
[2]Azərbaycan Respublika Dövlət Elmi Tibb Kitabxanası, Bakı

Xülasə*:* Məqalədə müasir informasiyalaşdırma dövründə tibb elminin, eləcə də ictimai sağlamlıq və səhiyyənin təşkilinin informasiya təminatı məsələləri öz əksini tapmışdır. Müəlliflər hazırda informasiya təminatının xarakterik xüsusiyyətləri, kitabxanaların, informasiya mərkəzlərinin qarşısında duran zəruri məsələləri, tibbə dair sənəd-informasiya sisteminin strukturu haqqında ətraflı məlumat vermişlər. Müəlliflər tibbə dair intensiv inkişaf edən sənəd axını və sənəd massivinin xarakterik xüsusiyyətlərini şərh etmiş, müasir və ənənəvi informasiya daşıyıcıları məsələsini təhlil etmişlər.

Açar sözlər: informasiya təminatı, sənəd, informasiya daşıyıcısı, tibb elmi, ictimai sağlamlıq

Müasir cəmiyyətin həyatı kommunikasiya sistemləri ilə çox bağlıdır. Bu sistem çərçivəsində cəmiyyətin informasiya tələbatının ödənilməsi sahəsində böyük həcmli işlər aparılır. Professional baxımdan bu prosesdə müxtəlif sosial institutlar iştirak edir ki, onların da əsas funksiyası sənədlərlə məqsədyönlü iş aparmaqdan ibarətdir. Faydalı informasiyanın yaradılması və səmərəli şəkildə yayımının təşkil edilməsi məsələsilə elmi təşkilatlar, informasiya mərkəzləri və başqa orqanlar məşğul olur. Tarixən sənədlərin işlənməsi, mühafizəsi və onlardan içtimai istifadənin təskili sahəsində öz missiyasını tam yerinə yetirən daha qədim institututlar kitabxanalardır. Üç min il ərzində məhz kitabxanalar bəşəriyyətin yaratmış olduğu bütün yazılı sərvətlərdən ictimai istifadəni təmin etmişdir. Bu müddət ərzində kitabxanalar sənədlərlə səmərəli işləmək ücün onların növ tərkibini, xüsusiyyətlərini səciyyələndirmək məqsədilə böyük həcmdə elmi-metodik işlər görmüşlər. Belə ki, kitabxanalar öz təbiəti etibarilə sənədlərlə bağlıdır. İnformasiya daşıyıcısının maddi forması, informasiyanın yazılması və təqdim olunması texnologiyası prinsipial əhəmiyyət kəsb etməsə də, cəmiyyətin maraqlarına uyğun olaraq onların saxlanması və istifadəsinin təşkili böyük sosial mahiyyıt daşıyır. Məhz bunun nəticəsində elmi-metodik biliklər sistemi və tədris fənni kimi sənədşünaslıq yaranmışdır. Sənədşünaslığın əhəmiyyəti sosial həyatın bütün sahələrində sənədli informasiyanın kütləvi istehsalı və istehlakı ilə əlaqədardır.

Sənədin əsas, baş tərkib elementi informasiyadır, yəni kommunikasiya prosesində istifadə olunan müxtəlif məlumatlar, xəbərlər, biliklərdir. Sənəddə mühafizə edilən informasiyalar aşağıdakı spesifik xüsusiyyətlərə malikdir:

1) sənəd cəmiyyətdə istifadə edilmək üçün insan tərəfindən yaradılmış sosial informasiya daşıyıcısıdır;

2) sənəd insanın intellektual fəaliyyəti nəticəsində yaradılan semantik informasiyanı əks etdirməlidir. Müəyyən məzmuna (mənaya) malik olması sənədin fərqləndirici əlamətlərindən biridir. Sənəddə mənası olmayan informasiya ola bilməz;

3) sənəddə informasiya diskret xarakterə malikdir, yəni müəyyən an, zaman daxilində bitkin xarakter daşıyır. Kağız sənədlərdə diskretlik statik, daimi, bəzi elektron sənədlərdə isə dinamik, dövri xarakter daşıyır (Məsələn: web - sənədlərdə). Hər hansı maddi daşıyıcıya (papirus, kağız,

fotoplyonka və s.) fiksasiya edilmiş, yazılmış məlumat sənəd forması alır. Əksər sənədlər üçün məlumatlar bitkin, qurtarmış formadadır. Bitkin olmayan, fraqmentar məlumatlar tam sənəd ola bilməz. Öz müəllifinin (yazıçı, alim, rəssam) yaradıcılıq prosesini xarakterizə edən bitməyən ədəbi əsərlər, eskizlər, qeydlər (nabroska), qaralamalar bu baxımdan istisnalıq təşkil edir;

4) işarə təbiətinə malik olan istənilən obyekt kimi yazılı məlumat da kodlaşdırılmış mətndir. Kodlaşdırılmış mətnlərin mənasını yalnız işarə sisteminin kodlaşdırılma va kodaçma qaydalarını bilməklə başa düşmək olar. Məsələn: biz çox halda heroqlif işarələri ilə yazılmış mətnin məzmununu başa düşə bilmirik. Çünki bıi işarələrin kodlaşdırılmış (yazılmış) işarə sistemini bilmirik.

Fiksasiya olunmuş, yazılmış məlumat işarə formasına malikdir. Yalnız belə formada biliyi, emosiyanı, müəllifin müəyyən sahədə dünyagörüşünü əks etdirə və oxucu həmin işarə sistemini şifrəsini aşaraq, müəyyən bilik əldə edə bilər. İşarə sisteminə malik olmaq istənilən sənədin vacib xassəsidir;

5) sənəd maddi daşıyıcıda insanın yaratdığı üsullarla qeyd edilən yazı, qrafika, fotoqrafiya, səs yazısı və s. ibarət olan informasiyalardır;

6) sənəd substansionallq, yəni stabil, sabit maddi obyekt formasına malikdir.

İnformasiya qeyri-sənəd, yəni maddi daşıyıcıya köçürülməmiş və maddi daşıyıcıya (kağız, disket, optik disk və s.) keçirilmiş formada, yəni zaman və məkan etibarilə mühafizə və verilmə (yayılma) üçün yaradıla bilər.

İnformasiya prosesləri insan həyatının bütün sahələrinə fəal təsir göstərir. Müasir innovativ texnologiyaların tətbiq edilməsi bu təsiri daha da artırır. Öz potensialını reallaşdırmaq, peşəkar uğur əldə etmək və ahəngdar inkişaf etmiş şəxsiyyətə çevrilmək üçün müasir insan kifayət qədər yüksək informasiya mədəniyyətinə malik olmalıdır. Eyni zamanda, məlumatların əksəriyyəti maddi mediada qeyd olunur və müxtəlif sənədlərdə yer alır. Beləliklə, informasiya və sənədləşmə prosesləri və sənədlərlə işləməyin əsasları haqqında biliklər insanın informasiya mədəniyyətinin tərkib hissəsidir deməyə bizə əsas verir.

Sənədli informasiya cəmiyyətin inkişafında tükənməz resurs kimi xarakterizə olunur. Maddi-resurs iqtisadiyyatından yeni "bilik iqtisadiyyatına" keçid dövründə informasiyanın mövcudluğunun müxtəlif formalarında peşəkarlıqla əlaqəli olan insanların sayı kəskin şəkildə artır.

İnformasiya texnologiyalarında baş verən dəyişikliklər informasiyanın tənzimlənməsinə, intellektual irsin istifadəsi və mühafizəsilə məşğul olan sosial institutların dairəsini genişləndirir. Bu institutlara qanunverici orqanlar, nəşriyyat təşkilatları, biblioqrafik və informasiya mərkəzləri, kitabxanalar, muzeylər, arxivlər, məlumat bazalarının sahibləri, axtarış sistemləri və fərdi internet resursları aid edilir.

Müasir informasiya dəstəyi həmin sənədlərin və ya onlardan fərdi konkret istifadəçi qruplarının ehtiyaclarına cavab verən məlumatların operativ şəkildə tapılmasını nəzərdə tutur [1].

Müasir dövrdə tibb elminin informasiya mühitinin təşkili məsələsi aktualdır. Məlumdur ki, son dərəcə böyük həcmdə məlumat massivinin mövcud olması və daha da artması nəticəsində lazımi infrastrukturun olmaması problemi də qarşıda durur. Böyük həcmdə məlumatların saxlanması, emal edilməsi və ictimai istifadəsinin təşkili üçün infrastrukturların qarşısında duran əsas məsələ informasiyanın tamlığının, məxfiliyinin və əlyetərliyinin təmin edilməsidir [2]. İctimai səhiyyə ilə bağlı mühüm qərarlar qəbul etmək üçün məlumatın sürətlə əldə edilməsinə tələbatın olması danılmazdır. Belə sistemlərin inkişafı ictimai səhiyyə mütəxəssislərinin real məlumat ehtiyaclarının başa düşülməsini tələb edir. Bu məqalə ictimai səhiyyə mütəxəssislərinin informasiya ehtiyacları ilə bağlı ədəbiyyatın nəzərdən keçirilməsinin nəticələrini təqdim edir. İctimai səhiyyə mütəxəssisləri tərəfindən istifadə edilən informasiya resurslarının son dərəcə müxtəlif olması, müxtəlif informasiya axtarışı metodlarından istifadə edilməsi, yeni icmalların ayaradılması tələbatını qarşıya qoyur. İctimai sağlamlıq biblioqrafları və digər informasiya mütəxəssisləri sübutlu tibbin nəticələrin istifadə edilməsi, ekspert axtarışları və məlumat axtarış sistemlərindən istifadə üzrə təlimlərin aparılmsına xüsusi diqqət göstərirlər [3].

Yeni informasiyanın meydana çıxması və tətbiqi həmin formada olan sənədlərin tez bir zamanda sənəd-kommunikasiyalar sistemində yayılmasına səbəb olur. Nəticədə onlar cəmiyyətdə sənəddən ictimai istifadəni təşkil edən kitabxanaların fonduna daxil olur. Kitabxanalar öz sənəd fondlarının strukturunu zamanın tələblərinə müvafiq olaraq inkişaf etdirir, yeni sənəd formaları və növləri ilə zənginləşdirir [4].

Aşkar edilən universal, innavasion və mürəkkəb professional şəraitdə biliklərin zənginləşdirilməsi və onlayn xidmətin təmin edilməsi strategiyasının müəyyən edilməsi zəruri vəzifələrdəndir. Tibb elminə xidmət edən kitabxanaçılar üçün aşkar edilən bu yeni vəzifələrlə yanaşı kitabxanaçılığın fundamental kompetensiyasının kombinə edilməsi üçün tibb elmi sahəsində fəaliyyət göstərəcək kitabxanaçı kadrların nəzəri-praktik səviyyəsinin artırılması məsələsinə diqqət yetirilməlidir.

ƏDƏBİYYAT

1.Кайгородова Т.В. Информационные ресурсы Всемирной организации здравоохранения в анализе состояния здоровья населения при установлении приоритетов в здравоохранении // Социальные аспекты здоровья населения, 2007, №1

2.Ma J., Stahl L., Knotts E. Emerging roles of health information professionals for library and information science curriculum development: a scoping review // J Med Libr Assoc., 2018, 106(4), p. 432–44

3.Revere D., Turner A.M., Madhavan A. et al. Understanding the information needs of public health practitioners: a literature review to inform design of an interactive digital knowledge management system // J Biomed Inform, 2007, 40(4), p, 410-21

4. Земсков А.И., Шрайберг Я.Л. Электронные библиотеки. М., 2003, с. 60-61.

Характеристика информационных ресурсов общественного здравоохранения

[1] Я.Г. Гаджиева, [2] Е.У. Пиралиева, [1]Р.Б. Лифтиев

[1]Азербайджанский медицинский университет,
кафедра общественного здоровья и организации здравоохранения, Баку
[2]Азербайджанская Республиканская Государственная научно-медицинская библиотека, Баку

Резюме: В статье отражены вопросы информационного обеспечения медицинской науки, а также здравоохранения и организации здравоохранения в эпоху современной информатизации. Авторы предоставили подробную информацию об особенностях информационного обеспечения, необходимых проблемах, стоящих перед библиотеками и другими информационными учреждениями, структуре медицинской документально-информационной системы. Авторы прокомментировали особенности документооборота и документооборота, который интенсивно развивается в медицине, а также проанализировали вопрос о современных и традиционных носителях информации.

Ключевые слова: информационное обеспечение, документ, носитель информации, медицинская наука, здравоохранение.

Characteristics of public health information resources

[1]Y.H.Hajiyeva, [2]Y.U.Piraliyeva, [1]R.B.liftiyev

[1]Azerbaijan Medical University, Department of Public Health and Health Organization, Baku
[2]Azerbaijan Republican State Scientific Medical Library, Baku

Summary: The article reflects issues of information support for medical science, as well as healthcare and healthcare organization in the era of modern informatization. The authors provided detailed information about the features of information support, the necessary problems facing libraries and other information institutions, and the structure of the medical documentation and information system. The authors commented on the features of document flow and document flow, which is rapidly developing in medicine, and also analyzed the issue of modern and traditional information media.

Key words: information support, document, information carrier, medical science, healthcare

Daxil olub: 16.11.2023